# AZƏRBAYCAN RESPUBLİKASININ

# QANUNU

Vəzifəli şəxslərin fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması haqqında

Bu Qanunun əsas məqsədi vəzifəli şəxslər tərəfindən vəzifə səlahiyyətlərinin icrası zamanı maraqlar toqquşmasının qarşısını almaqdan ibarətdir. Maraqlar toqquşmasının qarşısının alınmasının məqsədi vəzifəli şəxslərin səmərəli, ədalətli, vicdanlı, qərəzsiz və ictimai maraqlara cavab verən fəaliyyətinin təmin edilməsi və cəmiyyətdə onlara etimadın artırılmasıdır.

## İ FƏSİL.

## Ümumi müddəalar

Maddə 1. Əsas anlayışlar

1.1. Bu Qanunun məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə olunur:

1.1.1. vəzifəli şəxs — "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanunun 2.1.1-2.1.4-cü, 2.1.6 və 2.1.7-ci maddələrində göstərilən şəxslərdir. Bu Qanunun müddəaları Azərbaycan Respublikasının Milli Məclisinin deputatlarına, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin deputatlarına, Azərbaycan Respublikası məhkəmələrinin hakimlərinə və prokurorluq işçilərinə şamil olunmur. Həmin vəzifəli şəxslərin fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması bu Qanunun müddəaları nəzərə alınmaqla xüsusi qanunlarla tənzimlənir.

1.1.2. dövlət qurumu — dövlət orqanları; dövlət idarə, müəssisə, təşkilatları; habelə fəaliyyəti dövlət büdcəsi tərəfindən maliyyələşdirilən digər qurumlar.

1.1.3. yaxın qohum — vəzifəli şəxsin arvadı (əri), valideynləri, baba və nənələri, övladları və onun tərəfindən övladlığa götürülən şəxslər, doğma (ögey) bacı və qardaşları, nəvələri, bacı və qardaşının övladı, bacısının əri və qardaşının arvadı, dayıları, əmiləri, xalaları, bibiləri, eləcə də arvadının (ərinin) valideynləri, doğma (ögey) bacı və qardaşları.

1.1.4. yuxarı vəzifəli şəxs — vəzifəli şəxsin fəaliyyətinə nəzarət etmək, ona göstəriş və ya tövsiyə vermək səlahiyyətinə malik olan vəzifəli şəxs.

1.1.5. maraqlı şəxslər (bundan sonra "maraqlı şəxs") aşağıdakılardır:
1.1.5.1. vəzifəli şəxsin yaxın qohumu;
1.1.5.2. vəzifəli şəxsin 25% və ya daha çox paya (səhmə) sahib olduğu hüquqi şəxsdə (təsərrüfat subyektində) 25% və ya daha çox paya (səhmə) sahib olan; yaxud vəzifəli şəxsin idarəetmə və ya nəzarət funksiyalarını həyata keçirdiyi hüquqi şəxsdə və ya təsərrüfat subyektində 25% və ya daha çox paya (səhmə) sahib olan şəxs;

*Digər variant:*

*Vəzifəli şəxsin müvafiq paya (səhmə) sahib olduğu hüquqi şəxsdə müvafiq paya (səhmə) sahib olan şəxs; yaxud vəzifəli şəxsin idarəetmə və ya nəzarət vəzifələrində çalışdığı hüquqi şəxsdə müvafiq paya (səhmə) sahib olan şəxs;*

*müvafiq pay (və ya payların müvafiq hissəsi) – hüquqi şəxslərin təşkilati-hüquqi formasından asılı olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən minimum pay (səhm);*

1.1.5.3. vəzifəli şəxsin və ya onun yaxın qohumunun idarəetmə və ya nəzarət funksiyalarını həyata keçirdiyi hüquqi şəxs və ya təsərrüfat subyekti;

1.1.5.4. paylarının (səhmlərinin) 25% və ya daha çox hissəsi (digər variant – payların müvafiq hissəsi) vəzifəli şəxsə və ya onun yaxın qohumuna məxsus olan hüquqi şəxs və ya təsərrüfat subyekti;

1.1.5.5. vəzifəli şəxsin və ya onun arvadının (əri), övladlarının, o cümlədən onun tərəfindən övladlığa götürülmüş şəxslərin qarşısında dəyəri şərti maliyyə vahidinin 2000 misli və ya daha çox məbləğdə maliyyə və ya mülki öhdəlik daşıyan fiziki və ya hüquqi şəxs və ya təsərrüfat subyekti;

1.1.5.6. elə fiziki və ya hüquqi şəxs və ya təsərrüfat subyekti ki, onların qarşısında vəzifəli şəxs, onun əri (arvadı), övladları, o cümlədən onun tərəfindən övladlığa götürülmüş şəxs dəyəri şərti maliyyə vahidinin 2000 misli və ya daha çox məbləğdə maliyyə və ya mülki öhdəlik daşısınlar.

1.1.5.6. – Bu Qanunun 9-cu maddəsində göstərilən idarəetmə və nəzarət funksiyaları təhvil verilmiş şəxs;

1.1.6. maraqlar toqquşması – vəzifəli şəxsin özü və ya ailə üzvləri ilə bağlı olan və ya vəzifəli şəxsin şəxsi marağının olduğu və bu marağın onun xidməti vəzifələrinin obyektiv və qərəzsiz icrasına təsir göstərdiyi və ya təsir göstərə biləcəyi vəziyyət.

1.1.7. şəxsi maraq – vəzifəli şəxsin özü və ya maraqlı şəxs üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlərdir. Bu anlayışa habelə vəzifəli şəxsin hər hansı maliyyə və mülki öhdəliyi də daxildir.

1.1.8. əlaqəli qanunlar – "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu və "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 7-13-cü maddələri.

1.2. Bu Qanunla müəyyən edilən əsas anlayışlar müstəsna olaraq bu Qanunla tənzimlənən münasibətlərə tətbiq edilir.

## Maddə 2. Vəzifəli şəxslərin fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması haqqında qanunvericilik

Vəzifəli şəxslərin fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir.

## Maddə 3. Bu Qanunun tətbiqi dairəsi

Bu Qanun Azərbaycan Respublikasının ərazisində bu Qanunun 1.1.1-ci maddəsində göstərilən istisnalar nəzərə alınmaqla bütün vəzifəli şəxslərə şamil edilir. Azərbaycan Respublikasının hüdudlarından kənarda isə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq tətbiq edilir.

## İI FƏSİL.

### Vəzifəli şəxslər üçün müəyyən edilən məhdudiyyətlər

Maddə 4. Şəxsi maraqların təmin edilməsi məqsədilə vəzifə səlahiyyətlərindən istifadə etmə

4.1. Vəzifəli şəxsin şəxsi maraqlarının təmin edilməsi məqsədi ilə vəzifə səlahiyyətlərindən istifadə etməsi və maraqlı şəxslərin onun vəzifə səlahiyyətlərinin icrasına təsir göstərməsi qadağandır.

*4.2.* Vəzifəli şəxs xidməti vəzifələrinin icrası ilə bir araya sığmayan fəaliyyət növü ilə məşğul ola bilməz*,* hüquqi şəxslərdə xidməti vəzifələrinin obyektik və qərəzsiz icrası ilə ziddiyyət təşkil edən paya (səhmə), o cümlədən ümumi mülkiyyət payına malik ola bilməz.

Maddə 5. Maraqlar toqquşması yarada biləcək fəaliyyətlə bağlı məhdudiyyətlər

5.1. Vəzifəli şəxs vəzifə səlahiyyətlərinin icrası zamanı şəxsi maraqlarına toxunan məsələlərlə bağlı normativ hüquqi və ya normativ xarakterli aktların, qərarların hazırlanmasında və ya qəbul edilməsində, müqavilələrin hazırlanmasında və ya bağlanmasında iştirak edə, yoxlama və ya nəzarət funksiyalarını icra edə və ya maraqlar toqquşması yaradan hər hansı digər hərəkət (hərəkətsizlik) edə bilməz.

5.2. Vəzifəli şəxs normativ hüquqi və ya normativ xarakterli aktların, qərarların hazırlanması və ya qəbul edilməsi və ya hər hansı hərəkətin (hərəkətsizliyin) edilməsi zamanı şəxsi maraqlarına toxunan məsələlərə dair digər vəzifəli şəxsə təsir etmək üçün öz statusundan, vəzifə və ya səlahiyyətlərindən və ya təmsil etdiyi dövlət qurumu və ya bələdiyyənin statusundan istifadə edə bilməz.

5.3. Əvvəllər sahibkarlıq fəaliyyəti subyektinin idarəetmə və ya nəzarət orqanının üzvü olmuş vəzifəli şəxs həmin sahibkarlıq fəaliyyəti subyekti ilə əmək və mülki-hüquqi münasibətlərinə xitam verdikdən sonra iki il müddətində bu sahibkarlıq fəaliyyəti subyektinin fəaliyyətinə aid məsələlərə dair normativ-hüquqi və ya normativ xarakterli aktlar, qərarlar qəbul edə bilməz. Bu maddə seçkili vəzifə tutan şəxslərə şamil edilmir.

5.4. Kollegial orqanın üzvü olan vəzifəli şəxs bu orqan tərəfindən baxılan məsələlər onun şəxsi maraqlarına toxunduğu hallarda bu orqanı məlumatlandırmalı və kollegial orqanın razılığı ilə bu məsələlərə baxılmasında iştirakdan imtina etməlidir.

Maddə 6. Digər şəxsləri təmsil etməklə bağlı məhdudiyyətlər

6.1. Vəzifəli şəxs şəxsi maraqlarına toxunan məsələlərdə dövlət qurumunu və ya bələdiyyəni təmsil edə bilməz.

6.2. Vəzifəli şəxs qulluq etdiyi dövlət qurumu və ya bələdiyyənin fəaliyyəti ilə bağlı məsələlərdə üçüncü tərəfin məsləhətçisi, eksperti, vəkili və ya digər formada nümayəndəsi qismində çıxış edə bilməz.

Maddə 7. Əlavə vəzifələr tutmaqla bağlı məhdudiyyətlər

7.1. Vəzifəli şəxs xidməti vəzifələrini icra etməli olduğu müddət ərzində maraqlar toqquşması yaradan heç bir fəaliyyətlə məşğul ola bilməz.

7.2. Vəzifəli şəxs elmi və yaradıcılıq fəaliyyəti, işlədiyi dövlət qurumu rəhbərinin icazəsi ilə pedaqoji və maraqlar toqquşması yaratmayan başqa ödənişli fəaliyyətlə məşğul ola bilər.

## Maddə 8. Əlavə ödənişlər almaqla bağlı məhdudiyyətlər

8.1. Xidməti vəzifələrinin icrası ilə bağlı aldığı dövlət məvacibi və digər qanuni ödənişlərdən başqa, vəzifəli şəxs xidməti vəzifələrinin icrası və ya icra edilməməsi müqabilində heç bir maddi və sair nemətlər, imtiyaz və ya güzəşt xahiş, tələb və ya qəbul edə bilməz.

8.2. Təsərrüfat subyektlərinin idarəetmə orqanlarında dövləti və ya bələdiyyələri təmsil edən vəzifəli şəxslərə aşağıdakılar qadağan edilir:

8.2.1. birbaşa və ya dolayı yolla vəzifələrinin icrası ilə bağlı olmayan maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin alınması;

8.2.2. nümayəndə olduğu təsərrüfat subyektlərinin səhmlərinin, nizamnamə kapitalından payın və həmin təşkilatın əmlakının əldə edilməsi;

8.2.3 nümayəndə olduğu təsərrüfat subyektlərində digər vəzifənin tutulması.

8.3. Vəzifəli şəxs bu Qanunun 8.2.2-ci və 8.2.3-cü maddələrində müəyyən edilmiş tələblərə nümayəndə funksiyasına xitam verildikdən sonra iki il müddətində əməl etməlidir.

## Maddə 9. Sahibkarlıq fəaliyyəti subyektində maraqların idarə edilməsi

9.1. Vəzifəyə təyin edildiyi və ya seçildiyi gündən sonrakı bir ay müddətində vəzifəli şəxs sahibkarlıq fəaliyyəti subyektində olan mülkiyyət payından irəli gələn idarəetmə və ya nəzarət funksiyalarını digər hüquqi və ya fiziki şəxsə təhvil verməlidir. İdarəetmə və ya nəzarət hüquqları təhvil verilən şəxs bu Qanunun 1.1.5.1- 1.1.5.6-cı maddələrində göstərilən şəxs ola bilməz. İdarəetmə və ya nəzarət hüquqları təhvil verilən şəxs sahibkarlıq fəaliyyəti subyektində vəzifəli şəxsin xeyrinə onun vəzifələrinin icrası başa çatana qədər qanunvericiliyə uyğun olaraq müstəqil surətdə fəaliyyət göstərir.

9.2. Vəzifəli şəxs idarəetmə və ya nəzarət funksiyalarını təhvil verdikdən sonra on gün müddətində bu Qanunun 18.1.2-ci maddəsində nəzərdə tutulan orqana idarəetmə hüquqları təhvil verilən hüquqi və ya fiziki şəxs barədə məlumat verir. Məlumatda təhvil verməni təsdiq edən sübutlar göstərilir.

## Maddə 10. Hədiyyə ilə bağlı məhdudiyyətlər

10.1. Vəzifəli şəxs xidməti vəzifələrinin obyektiv və qərəzsiz icrasına təsir edə bilən və ya bu cür təsir təəssüratı yaradan və ya onun vəzifələrinin icrası müqabilində mükafat qismində verilən və ya bu cür mükafat təəssüratı yaradan hədiyyələri özü və ya digər şəxslər üçün tələb edə və ya qəbul edə bilməz. Bu qayda xırda hədiyyələrin qəbul edilməsi və adi qonaqpərvərlikdən istifadə hallarına şamil olunmur.

10.2. Vəzifəli şəxs on iki aylıq müddət ərzində bir və ya bir neçə fiziki və ya hüquqi şəxsdən və ya təsərrüfat subyektindən ümumi dəyəri şərti maliyyə vahidinin 50 mislindən çox olan bir neçə hədiyyənin verilməsini xahiş edə və ya belə hədiyyələri qəbul edə bilməz.

10.3. Vəzifəli şəxs özü və ya maraqlı şəxslər üçün təbii fəlakət ilə bağlı olan və ya tibbi xarakterli yardım qəbul edə bilər.

10.4. Vəzifəli şəxs hər hansı hədiyyənin qəbul edilməsinin bu Qanunun 10-cu maddəsinə uyğun olub-olmadığını müəyyən edə bilmədiyi hallarda, o bu məsələ ilə bağlı yuxarı vəzifəli şəxsin və ya müvafiq dövlət orqanının rəyini öyrənməlidir. Lakin istənilən halda hədiyyənin qəbul edilməsi ilə bağlı məsuliyyəti hədiyyəni qəbul etmiş vəzifəli şəxs daşıyır.

Maddə 11. İşgüzar və maliyyə münasibətlərinə dair məhdudiyyətlər

11.1. Vəzifəli şəxs hər hansı bir fiziki şəxsin dövlət qurumunda və ya bələdiyyədə işə qəbul edilməsi və ya belə fiziki şəxsin işə qəbul edilmə prosesinə nüfuz edilməsi ilə bağlı hər hansı bir fiziki və ya hüquqi şəxsdən və ya təsərrüfat subyektindən maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər xahiş edə və ya qəbul edə bilməz.

11.2. Yuxarı vəzifəli şəxs digər vəzifəli şəxsin vəzifədə irəli çəkilməsi, onun vəzifə və səlahiyyətlərinin dəyişdirilməsi, ona verilən dövlət məvacibinin (əmək haqqının) və digər qanuni ödənişlərin artırılması ilə bağlı hər hansı bir fiziki və ya hüquqi şəxsdən və ya təsərrüfat subyektindən hər hansı maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər xahiş edə və ya qəbul edə bilməz.

11.3. Yuxarı vəzifəli şəxs digər vəzifəli şəxs ilə və ya digər vəzifəli şəxsin maraqlı şəxsi ilə işgüzar və ya maliyyə münasibətlərinə daxil ola bilməzlər.

11.4. Vəzifəli şəxslər bu Qanunun 11-ci maddəsi ilə müəyyən olunan məhdudiyyətlərə dövlət qurumu və ya bələdiyyədə xidmətini dayandırdıqdan sonra iki il müddətində əməl etməlidirlər.

Maddə 12. Dövlət qurumu və bələdiyyələrə təqdim edilən və maraqlar toqquşması yaradan yardımların alınmasına dair məhdudiyyətlər

12.1. Vəzifəli şəxs dövlət qurumlarının və bələdiyyələrin ehtiyaclarını təmin etmək üçün hər hansı fiziki və ya hüquqi şəxsdən və ya təsərrüfat subyektindən hədiyyə və ya ianə verməyi, maliyyə və ya texniki köməklik etməyi və ya hər hansı digər formada yardım etməyi tələb edə və ya həmin şəxsləri belə hərəkətlərə məcbur edə bilməz.

12.2. Dövlət qurumunun və ya bələdiyyələrin ehtiyaclarını təmin etmək, işçilərin ixtisasını artırmaq, onların iş şəraitini və texniki təchizatını yaxşılaşdırmaq məqsədi ilə və ya digər qanuni məqsədlər üçün dövlət qurumları və bələdiyyələr, maraqlar toqquşması yarada biləcək hallar istisna olmaqla, fiziki və hüquqi şəxslərdən, təsərrüfat subyektlərindən hədiyyə, ianə, maliyyə və ya texniki köməklik yaxud hər hansı digər formada yardım ala bilərlər. Dövlət qurumları və ya bələdiyyələr onlara edilən yardımdan təyinatı üzrə istifadə etməlidirlər.

12.3. Dövlət qurumlarına və ya bələdiyyələrə hədiyyə, ianə, maliyyə və ya texniki köməklik yaxud hər hansı digər formada yardım etmiş fiziki və ya hüquqi şəxslərə və ya təsərrüfat subyektlərinə həmin orqanlardan qanunvericiliklə müəyyən edilmiş güzəşt və imtiyazların alınmasında üstünlük hüququ verilmir.

12.4. Vəzifəli şəxslər humanitar və xeyriyyəçilik məqsədləri istisna olmaqla üçüncü şəxslərin xeyrinə ianə yaxud digər formada maddi və ya texniki yardımın toplanmasında iştirak edə bilməzlər.

Maddə 13. Dövlət satınalmaları, dövlət və bələdiyyə əmlakının satışında iştirak ilə bağlı məhdudiyyətlər

13.1. Vəzifəli şəxs və ya maraqlı şəxslər vəzifəli şəxsin işlədiyi dövlət qurumu və bələdiyyə üçün malların, işlərin və xidmətlərin əldə edilməsi müqaviləsində tərəf kimi çıxış edə bilməz.

Digər variant:

*Vəzifəli şəxs işlədiyi dövlət qurumu və bələdiyyə üçün malların, işlərin və xidmətlərin əldə edilməsi müqaviləsində tərəf kimi çıxış edə bilməz.*

*Dövlət qurumu və bələdiyyənin rəhbərlərinin maraqlı şəxsləri, həmçinin bu orqanlar üçün malların, işlərin və xidmətlərin əldə edilməsi ilə bağlı təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən digər vəzifəli şəxslərin maraqlı şəxsləri həmin vəzifəli şəxslərin işlədiyi dövlət qurumu və bələdiyyə üçün malların, işlərin və xidmətlərin əldə edilməsi müqaviləsində tərəf kimi çıxış edə bilməz.*

13.2. Dövlət qurumunun və bələdiyyənin rəhbəri və bu qurumlarda təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən digər vəzifəli şəxslər və onların ailə üzvləri bu vəzifəli şəxslərin işlədiyi dövlət qurumu və ya bələdiyyə üçün malların, işlərin, xidmətlərin əldə edilməsi müqaviləsinə tərəf olan hüquqi şəxsdə beş faizdən çox mülkiyyət payına (həmçinin onun borclarında beş faizdən çox paya) və həmin hüquqi şəxsdə idarəetmə və nəzarət funksiyalarına malik ola bilməz.

13.3. Dövlət satınalmalarının təşkili, danışıqların aparılması, müqavilələrin hazırlanması və imzalanması da daxil olmaqla istənilən satınalma proseduru maraqlar toqquşması yaradarsa vəzifəli şəxs belə satınalma prosedurunda iştirak edə bilməz.

13.4. Dövlət və ya bələdiyyə əmlakının satışında, özəlləşdirilməsində və ya kreditlərin verilməsində iştirak maraqlar toqquşması yaradarsa, vəzifəli şəxs belə hərəkətlərin həyata keçirilməsində iştirak edə bilməz.

13.5. Əgər vəzifəli şəxs satınalmalarının təşkili, danışıqların aparılması, müqavilələrin hazırlanması və imzalanması da daxil olmaqla istənilən satınalma prosedurunda iştirak etmişsə, o, vəzifəli şəxs olduğu müddət ərzində həmin satınalma müqaviləsinin tərəfi olmuş fiziki və ya hüquqi şəxs və ya təsərrüfat subyekti ilə maliyyə və ya əmək münasibətlərinə daxil ola bilməz. Vəzifəli şəxslər bu məhdudiyyətə dövlət qurumu və ya bələdiyyədə xidmətini dayandırdıqdan sonra iki il müddətində əməl etməlidirlər.

Maddə 14. Dövlət qurumuna və bələdiyyəyə məxsus resurslardan istifadəyə dair məhdudiyyətlər

14.1. Vəzifəli şəxs şəxsi maraqları naminə və ya xidməti vəzifələrinin icrası ilə əlaqədar olmayan digər məqsədlərlə dövlət qurumuna və ya bələdiyyəyə məxsus əmlakdan, maliyyə vəsaitlərindən, rabitə, kompyuter və digər telekommunikasiya sistemlərindən, nəqliyyat vasitələrindən, binagüzarlıq və digər maddi-texniki təchizat avadanlıqlarından istifadə edə bilməz.

14.2. Yuxarı vəzifəli şəxs özünün şəxsi maraqları naminə digər vəzifəli şəxsdən və ya onun maraqlı şəxslərindən hər hansı fəaliyyət növü ilə məşğul olmağı xahiş və ya həmin şəxsləri belə hərəkətlərə məcbur edə bilməz.

14.3. Vəzifəli şəxs özünün və ya işlədiyi dövlət qurumunun və ya bələdiyyənin statusundan istifadə edərək şəxsi maraqları naminə reklam fəaliyyəti ilə məşğul ola bilməz.

## Maddə 15. Siyasi fəaliyyət ilə bağlı məhdudiyyətlər

Yuxarı vəzifəli şəxs digər vəzifəli şəxsdən və ya digər vəzifəli şəxsin maraqlı şəxslərindən hər hansı siyasi partiya, siyasi partiya bloku, qeyri-hökümət təşkilatı və ya şəxsin seçki kompaniyası üçün maliyyə yardımının edilməsi və hədiyyələrin verilməsi də daxil olmaqla, hər hansı hərəkəti etməyi xahiş edə və ya həmin şəxsləri belə hərəkətlərə məcbur edə bilməz.

## Maddə 16. Dövlət qurumunda və ya bələdiyyədə xidmətin dayandırılmasından sonrakı məhdudiyyətlər

16.1. Vəzifəli şəxs dövlət qurumunda və ya bələdiyyədə xidmətini dayandırdıqdan sonrakı müddət ərzində əvvəlki vəzifəsindən irəli gələn imkanlardan istifadə edərək hər hansı qanunsuz üstünlüyü əldə etmək üçün hərəkət (hərəkətsizlik) edə bilməz.

16.2. Əgər vəzifəli şəxs diskresiyon səlahiyyətlərə malik olarsa və o, hər hansı fiziki və ya hüquqi şəxs və ya təsərrüfat subyekti ilə bağlı belə səlahiyyətlərdən istifadə etmiş olarsa, onda bu vəzifəli şəxs belə fiziki və ya hüquqi şəxs və ya təsərrüfat subyekti ilə özünün əmək və ya maliyyə münasibətləri ilə bağlı müzakirələr, danışıqlar apara bilməz və ya belə maliyyə münasibətlərinə daxil ola bilməz.

16.3. Sabiq vəzifəli şəxs dövlət qurumunda və ya bələdiyyədə qulluğunu başa vurduqdan sonra iki il müddətində belə orqan və ya bələdiyyə ilə münasibətdə hər hansı fiziki və ya hüquqi şəxsin və ya təsərrüfat subyektinin məsləhətçisi, eksperti, vəkili və ya digər formada nümayəndəsi qismində çıxış edə bilməz.

16.4. Əgər vəzifəli şəxs vəzifə səlahiyyətlərinin icrası çərçivəsində hər hansı müqavilə, layihə, iş və ya tapşırıq üzərində işləyərsə, belə vəzifəli şəxs dövlət qurumunda və ya bələdiyyədə fəaliyyətini dayandırdıqdan sonra həmin müqavilə, layihə, iş və ya tapşırıq üzərində işləyə bilməz.

16.5. Vəzifəli şəxslər başqa işə qəbul edilmək üçün təkliflərin onun vəzifələrinin qərəzsiz və obyektiv icrasına təsir etməsinə imkan verməməlidir.

16.6. Vəzifəli şəxs başqa işə keçmə ilə əlaqədar təkliflərin maraqların toqquşmasına səbəb ola biləcəyi hallarda, bu barədə dövlət qurumunun və ya bələdiyyənin rəhbərinə məlumat verməlidir.

## Maddə 17. İnformasiyadan istifadə ilə əlaqədar məhdudiyyətlər

Vəzifəli şəxs vəzifələrinin icrası zamanı və vəzifələrinin icrası ilə əlaqədar əldə etdikləri ümumi istifadə üçün açıq olmayan informasiyadan xidməti məqsədlərdən kənar və ya özlərinin yaxud üçüncü şəxslərin xeyrinə istifadə edə bilməzlər. Bu tələb vəzifəli şəxslərə vəzifələrinin icrasından sonra informasiyanın açıqlanmasına qoyulan bütün məhdudiyyət müddəti ərzində şamil olunur.

## III FƏSİL.

## QANUNUN İCRASINA NƏZARƏT

Maddə 18. Qanunun icrasına nəzarət

18.1. Bu Qanunun icrasına nəzarəti:
18.1.1. Dövlət qurumu və bələdiyyənin rəhbəri - xidməti qaydada, yuxarı orqan – tabeçilik əsasında;
18.1.2. Müvafiq dövlət orqanı (bundan sonra "Nəzarət orqanı")- bu Qanunla müəyyənləşdirilmiş qaydada həyata keçirir.

***Nəzarət orqanı üçün mümkün variantlar:***

**Variant 1**. - Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya
**Variant 2** - Yeni yaradılacaq müstəqil qurum
**Variant 3** - Müvafiq icra hakimiyyəti orqanı (misal üçün - Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya)

Maddə 19. Dövlət qurumu və bələdiyyənin rəhbəri tərəfindən nəzarət

19.1. Vəzifəli şəxs vəzifələrinin icrası zamanı maraqlar toqquşmasının qarşısının alınması və ya aradan qaldırılması üçün şəxsən məsuliyyət daşıyır. Vəzifəli şəxsin məşğul olduğu hər hansı məsələ maraqlar toqquşması yaradarsa, o, dərhal özünün birbaşa rəhbərinə və ya aidiyyəti dövlət orqanına məlumat verməli, belə hallarda konkret məsələnin həllində iştirakdan imtina etməli, maraqlar toqquşmasının aradan qaldırılması və ya qarşısının alınması üçün digər zəruri tədbirləri görməlidir.
19.2. Dövlət qurumu və ya bələdiyyənin rəhbəri tabeliyində olan vəzifəli şəxslə bağlı maraqlar toqquşmasının mövcud olduğunu müəyyən etdikdə, onun səlahiyyətlərini tamamilə və ya qismən digər vəzifəli şəxsə vermək də daxil olmaqla, maraqlar toqquşmasının aradan qaldırılması üçün zəruri təxirəsalınmaz tədbirlər görməlidir. Aidiyyəti səlahiyyətlərin digər vəzifəli şəxsə verilməsi mümkün olmadıqda, onların icrası üçün qaydalar yüksək vəzifəli şəxs tərəfindən və ya kollegial qaydada həll edilir.
19.3. Vəzifəli şəxs digər vəzifəli şəxsi bu Qanunu pozmağa təhrik edə, ona kömək edə və hər hansı digər təsir göstərə bilməz. Vəzifəli şəxs təxirəsalınmadan yuxarı vəzifəli şəxsi və ya Nəzarət orqanını vəzifələrinin icrası ilə bağlı məruz qaldığı təzyiqlər və digər qanunsuz təsirlər barədə məlumatlandırmalıdır.
19.4. Vəzifəli şəxs vəzifəyə təyin edilərkən və ya seçilərkən, habelə bundan sonrakı dövrdə xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda həmin maraqların xarakteri və həcmi barədə yuxarı vəzifəli şəxsə və ya Nəzarət orqanına məlumat verməlidir.
19.5. Vəzifəli şəxslər vəzifəyə təyin edilərkən bu Qanun və əlaqəli qanunlarla tanış olduqları və həmin qanunlara əməl edəcəkləri barədə sənədi imzalayır və həmin sənəd onların qulluq etdikləri dövlət qurumları və ya bələdiyyələrdə saxlanılan şəxsi işinə daxil edilir.
19.6. Dövlət qurumu və bələdiyyənin rəhbəri bu Qanunun icrası və onların tabeliyində olan şəxslər tərəfindən bu qanunun müddəalarına əməl edilməsinə görə məsuliyyət daşıyır. Dövlət qurumları və bələdiyyələr bu Qanunun icrası ilə bağlı

Nəzarət orqanı tərəfindən qanunvericiliyə uyğun olaraq qəbul edilmiş təlimatlara əməl etməyə borcludurlar.

19.7. Dövlət qurumlarının və bələdiyyələrin rəhbərləri hər il 31 yanvar tarixinədək bu Qanunun aidiyyəti orqanda tətbiqi ilə əlaqədar planları Nəzarət orqanına təqdim edirlər. Bu planlar Nəzarət orqanı tərəfindən təsdiq edildikdən sonra icra edilə bilər. Nəzarət orqanı planları təsdiq edərkən bu Qanunun bütün dövlət qurumları və bələdiyyələrdə vahid icra mexanizmini təmin etməlidir. Planların forması Nəzarət orqanı nəzarət orqanı tərəfindən müəyyən edilir.

Maddə 20. Nəzarət orqanı tərəfindən nəzarət

20.1. Nəzarət orqanı bu Qanunun 1.1-ci maddəsində göstərilən bütün vəzifəli şəxslərə münasibətdə səlahiyyətlidir.

20.2. Nəzarət orqanı bu Qanunun icrasının təmin edilməsi ilə bağlı dövlət qurumları və bələdiyyələrin rəhbərləri ilə əməkdaşlıq edir və bu məqsədlə müvafiq təlimatlar verir.

Maddə 21. Nəzarət orqanın funksiyaları

21.1 Bu qanunun icrasına nəzarətlə bağlı Nəzarət orqanı:

21.1.1. maraqlar toqquşmasının qarşısının alınması məqsədilə bu Qanun və əlaqəli qanunlara əməl edilməsi barədə izahlar (rəylər) verir;

21.1.2. bu Qanunun və əlaqəli qanunların tələblərinin pozulması ilə bağlı araşdırma aparır;

21.1.3. bu Qanunun və əlaqəli qanunların pozulması ilə bağlı dinləmələri həyata keçirir;

21.1.4. bu Qanunun və əlaqəli qanunların müddəalarının vəzifəli şəxslərə və ictimaiyyətə çatdırılması üçün tədbirlər görür, bu məqsədlə müxtəlif maarifləndirmə tədbirləri həyata keçirir və belə tədbirlərinin həyata keçirilməsi üçün dövlət qurumları və bələdiyyələrə köməklik göstərir;

21.1.5. maraqlar toqquşmasının aradan qaldırılması barədə təkliflər verir;

21.1.6. daxil olmuş müraciətlərə, ərizə və şikayətlərə baxır və bu Qanuna uyğun olaraq müvafiq tədbirlər görür;

21.1.7. qanunvericiliklə nəzərdə tutulmuş digər funksiyaları həyata keçirir.

21.2. Nəzarət orqanının izah (rəy) vermə, araşdırma və dinləmələr keçirmə funksiyaları biri-birindən ayrı və müstəqil qurumlar və şəxslər tərəfindən həyata keçirilir.

21.3. Dövlət qurumlarında və bələdiyyələrdə bu Qanunun icrasına nəzarəti həyata keçirmək məqsədi ilə Nəzarət orqanının rəhbəri bir və ya bir neçə dövlət qurumuna və bələdiyyəyə öz nümayəndəsini təyin edir. Nümayəndələr Nəzarət orqanının əməkdaşları hesab edilirlər və onların əmək haqqı Nəzarət orqanı tərəfindən ödənilir.

Maddə 22. Maraqlar toqquşmasının qarşının alınması və aradan qaldırılması ilə bağlı izahlar (rəylər)

22.1. Nəzarət Orqanı maraqlar toqquşmasının qarşısını almaq məqsədilə vəzifəli şəxslərə bu Qanuna əməl edilməsi ilə bağlı təlimatlar verir. Əgər qanunda başqa qayda nəzərdə tutulmayıbsa, belə təlimatlar məxfi hesab edilir.

22.2. Nəzarət orqanı bu Qanunun müddəaları ilə bağlı məsələlər üzrə izah (rəy) verir. Nəzarət orqanının izahı (rəyi) vəzifəli şəxsin və ya onun yuxarı vəzifəli şəxsin sorğusu əsasında verilir və yalnız belə vəzifəli şəxsə şamil edilir. Sorğu

Nəzarət orqanının müəyyən etdiyi formada verilir və sorğu verən şəxs tərəfindən imzalanır. Nəzarət orqanı izahı (rəyi) sorğuda göstərilən faktlar və ya sorğu verəndən sonra yazılı şəkildə təqdim edilmiş faktlar əsasında verir.

22.3. İzah (rəy) vəzifəli şəxsin yalnız gələcək fəaliyyəti və ya hərəkəti ilə bağlı verilir. İzah üçün təqdim edilmiş sorğuda mühüm faktların qəsdən göstərilmədiyi və ya təhrif edildiyi hallar istisna olmaqla, izaha uyğun şəkildə hərəkət etmiş vəzifəli şəxs məsuliyyətə cəlb edilə bilməz. Nəzarət orqanı müvafiq vəzifəli şəxsi xəbərdar etməklə verdiyi izaha (rəyə) dəyişikliklər edə bilər. Belə dəyişikliklər edilmiş izah (rəy) vəzifəli şəxsin gələcək fəaliyyət və hərəkətlərinə şamil edilir.

22.4. Sorğu və sorğu əsasında verilmiş izah məxfi hesab edilir. Nəzarət orqanı izahda vəzifəli şəxsin və əlaqəli üçüncü şəxsin şəxsiyyətinin acıqlanmaması şərti ilə izahı (rəyi) tam və ya qismən dərc etdirə bilər.

22.5. Vəzifəli şəxs və ya onun yuxarı vəzifəli şəxsi Nəzarət orqanından həmin vəzifəli şəxsin keçmiş və ya hazırkı fəaliyyətində maraqlar toqquşmasını araşdırmağı və bu barədə qərar qəbul etməyi xahiş edə bilər. Belə müraciətlər Nəzarət orqanı tərəfindən ona daxil olan müraciətlərə baxılması qaydasında araşdırılır.

Maddə 23. Maraqlar toqquşması ilə bağlı müraciətlər

23.1. Nəzarət orqanı bu Qanunun və əlaqəli qanunların pozulması ilə bağlı müraciətləri (ərizə, şikayət və məlumatlar) qəbul edir. Müraciətlər yazılı formada poçt rabitəsi və ya digər elektron rabitə kanalları vasitəsilə və ya birbaşa təqdim etmə yolu ilə qəbul edilə bilər.

23.2. Nəzarət orqanı müraciətlər qəbul edildikdən sonra 10 gün müddətində aşağıdakı qərarlardan birini qəbul edilir:

23.2.1. müraciətin əsaslı olması təsdiq edilmədikdə və ya müraciət üzrə tədbirlərin görülməsi zərurəti olmadıqda müraciət üzrə icraat xitam verilməsi;

23.2.2. bu qanun və ya əlaqəli qanunların pozulmasını iddia edən müraciət kiçik əhəmiyyət kəsb etdikdə və ya aidiyyəti vəzifəli şəxsə qarşı intizam icraatı aparıldığı hallarda həmin müraciətin aidiyyəti dövlət qurumuna və bələdiyyəyə təqdim edilməsi;

23.2.3. müraciətin əsaslı olduğu təsdiq edildikdə, müraciət üzrə hansı tədbirlərin görülməsini müəyyən etmək məqsədi ilə araşdırma aparılması barədə qərar qəbul edilməsi;

23.2.4. vəzifəli şəxs tərəfindən bu Qanunun və ya əlaqəli qanunların pozulması barədə kifayət qədər əsasların olması haqda ilkin qərar qəbul edilməsi.

23.3. Nəzarət orqanı anonim müraciətləri qəbul edə bilər. Belə müraciətlər ancaq maraqları toqquşması ilə bağlı ümumi vəziyyətin dəyərləndirilməsi məqsədilə istifadə edilə bilər.

23.4. Vəzifəli şəxslər bu Qanun və əlaqəli qanunların pozulması ilə bağlı onlara məlum olan hərəkətlər haqqında təxirəsalınmadan və birbaşa yuxarı vəzifəli şəxsə və ya Nəzarət orqanına məlumat verməlidirlər. Belə məlumatın qəsdən təqdim edilməməsi intizam məsuliyyətinə səbəb olur.

23.5. Bu Qanunun və əlaqəli qanunların pozulması barədə müraciəti alan və ya belə pozuntunun olduğunu müəyyən edən dövlət qurumu və ya bələdiyyə həmin məsələlərin həlli onların səlahiyyətinə aid olmadığı hallarda bu barədə məlumatı Nəzarət orqanına təqdim edirlər. Bu qaydada daxil olan müraciət Nəzarət orqanı tərəfindən ona bilavasitə daxil olan müraciətlərə baxılması qaydasında araşdırılır.

23.6. Nəzarət orqanı ona şikayət edən, ona məlumat verən və ya onunla əməkdaşlıq edən vəzifəli şəxsləri yuxarı vəzifəli şəxslərin, dövlət qurumu və ya bələdiyyənin rəhbərləri tərəfindən edilən bütün təzyiqlərdən qorumalıdır. Nəzarət

orqanı ona şikayət edən, ona məlumat verən və ya onunla əməkdaşlıq edən vəzifəli şəxslərin müdafiə edilməsi və belə şəxslərə qarşı təzyiqlərin aradan qaldırılması ilə bağlı dövlət qurumu və ya bələdiyyənin rəhbərliyinə, yuxarı vəzifəli şəxsə tövsiyələr verir.

Maddə 24. Araşdırmaların aparılması qaydaları

24.1. Nəzarət orqanında bu Qanunun və əlaqəli qanunların pozulması ilə bağlı araşdırmaları həyata keçirən xüsusi qurum yaradılır.

24.2. Araşdırmanın başlanması üçün əsas Nəzarət orqanına daxil olan müraciətlər, kütləvi informasiya vasitəsinin məlumatları, yaxud bu məlumatların Nəzarət orqanı tərəfindən bilavasitə aşkar edilməsi ola bilər.

24.3. Araşdırma apararkən Nəzarət orqanı aidiyyəti şəxslərdən izahat ala bilər, qanunvericiliyə uyğun olaraq banklardan və digər kredit təşkilatlarından, telekommunikasiya subyektlərindən və digər fiziki və hüquqi şəxslərdən və təsərrüfat subyektlərindən məlumatlar tələb edə bilər. Dövlət qurumu və ya bələdiyyələr araşdırma ilə bağlı Nəzarət orqanın sorğu etdiyi sənədləri və məlumatları təqdim etməlidirlər.

24.4. Bu qanunun və əlaqəli qanunların pozulma faktlarını müəyyən etmək məqsədi ilə araşdırma apardığı hallarda "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydalarına" uyğun olaraq təqdim edilmiş bəyannamələr Nəzarət orqanının sorğusu əsasında həmin orqana təqdim olunur.

24.5. Nəzarət orqanı istənilən vəzifəli şəxsdən, fiziki və hüquqi şəxsdən və ya təsərrüfat subyektindən bu Qanunun və əlaqəli qanunların icrasının təmin edilməsi ilə bağlı araşdırma suallarına cavab verməyi tələb edə bilər.

24.6. Vəzifəli şəxslər Nəzarət orqanı ilə əməkdaşlıq edirlər. Nəzarət orqanının apardığı araşdırmaya maneə yaradan, müdaxilə edən və ya araşdırmanı ləngidən vəzifəli şəxs qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə cəlb edilir.

24.7. Bu Qanunun 23.2.4-cü maddəsində göstərilən hallarda və araşdırma zamanı bu Qanunun və ya əlaqəli qanunların pozulması barədə kifayət qədər əsaslar müəyyən edildikdə, Nəzarət orqanı bu barədə vəzifəli şəxsə yazılı bildiriş göndərir. Bildirişdə Nəzarət orqanının qanun pozuntusu qənaətini göstərən faktlar əks etdirilməli, bu Qanunun və ya əlaqəli qanunların pozulduğu iddia edilən müddəaları göstərilməlidir. Bildirişdə həmçinin Nəzarət orqanının prosedur qaydaları qeyd edilməlidir. Vəzifəli şəxs 15 gün müddətində bildirişə şifahi və ya yazılı şəkildə cavab verə və nümayəndə vasitəsi ilə təmsil edilə bilər.

24.8. Vəzifəli şəxsin bildirişə cavab verdiyi gündən sonra 15 gün müddətində Nəzarət orqanı:

24.8.1. bu Qanunun və ya əlaqəli qanunların vəzifəli şəxs tərəfindən pozulması barədə kifayət qədər əsaslar olmadığını müəyyən edərsə, iş üzrə icraata xitam verir və bu barədə vəzifəli şəxsə yazılı məlumat verir;

24.8.2. vəzifəli şəxsin cavabına baxdıqdan sonra, vəzifəli şəxs tərəfindən bu Qanunun və əlaqəli qanunların pozulması barədə kifayət qədər əsaslar olduğunu müəyyən edərsə, vəzifəli şəxslə bağlı dinləmələrə başlamaq haqqında qərar qəbul edir.

24.9. Nəzarət orqanının həyata keçirilən araşdırmanın faktiki halları barədə konfidensial hesabat tərtib edir. Araşdırma zamanı vəzifəli şəxsdən alınmış izahatlar hesabata əlavə edilir.

24.10. Araşdırma nəticəsində vəzifəli şəxsin əməlində cinayət tərkibinin əlamətləri və ya inzibati xəta əlamətləri aşkar edilirsə, Nəzarət orqanı hesabatı müvafiq hüquq mühafizə orqanına göndərir.

Maddə 25. Dinləmələr

25.1. Bu Qanunun və əlaqəli qanunların pozulması ilə bağlı işlər üzrə dinləmələrin həyata keçirilməsi məqsədilə Nəzarət orqanında xüsusi qurum yaradılır.

25.2. Nəzarət orqanı bu Qanunun və əlaqəli qanunların pozulması ilə bağlı işlər üzrə dinləmələrin həyata keçirilməsi qaydalarını müəyyən edir. Bu qaydalar özündə ən azı vəzifəli şəxsin aşağıdakı hüquqlarını nəzərdə tutur:

25.2.1. dinləmələrin materialları ilə tanış olmaq;

25.2.2. özünün seçdiyi nümayəndə ilə təmsil edilmək və müdafiə olunmaq;

25.2.3. dinləmələrin tarixi, vaxtı və yeri barədə xəbərdar edilmək;

25.2.4. dinləmələri həyata keçirən şəxsin obyektivliyinə və qərəzsizliyinə şübhə doğuran kifayət qədər əsas varsa ona etiraz etmək;

25.2.5. dinləmələrdə iştirak etmək, izahat, vəsatət və sənədlər təqdim etmək;

25.2.6. dinləmələr üzrə qərarın surətini almaq.

25.3. Dinləmələr kollegial şəkildə hüquqşünas ixtisası üzrə 5 ildən artıq iş təcrübəsinə malik olan şəxslər tərəfindən keçirilir.

25.4. Dinləmələr açıq şəkildə həyata keçirilir və bütün dinləmələrin nəticəsi üzrə protokol tərtib edilir.

*Digər variant:* *Dinləmələr, açıq keçirilməsi vəzifəli şəxs tərəfindən xahiş edildiyi hallardan başqa qapalı şəkildə keçirilir. Dinləmələr üzrə qərar və qərarın əsaslandığı faktlar və nəticə ictimaiyyətə açıqlanır.*

25.5. Nəzarət orqanı və barəsində dinləmələr aparılan vəzifəli şəxs şahid ifadəsi və digər sübutlar təqdim etmək, ona qarşı təqdim edilmiş sübutları nəzərdən keçirmək, qarşı tərəfin çağırdığı şahidlərə suallar vermək və istənilən qərar barədə şikayət vermək hüququ daxil olmaqla, Azərbaycan Respublikasının cinayət prosessual qanunvericiliyi ilə cinayət prosesi iştirakçıları üçün nəzərdə tutulan hüquqlara malikdirlər.

25.6. Dinləmələr zamanı bu qanunun və ya əlaqəli qanunları pozulmasını əsaslandıran faktlar araşdırma bölməsi tərəfindən təqdim edilir və müdafiə olunur.

25.7. Vəzifəli şəxsə dinləmənin günü barədə müvafiq qaydada xəbər verilmədikdə və ya o, üzrlü səbəblərdən dinləməyə gəlmədikdə məsələyə baxılması təxirə salınır. Dinləmələrin günü barədə müvafiq qaydada xəbərdar edilmiş və materiallarla tanış edilmiş vəzifəli şəxs üzrsüz səbəblərdən dinləməyə gəlmədikdə Nəzarət orqanı məsələyə onun iştirakı olmadan baxır. Vəzifəli şəxsin materiallarla tanış olmaqdan və ya iclasa gəlməkdən imtinası rəsmiləşdirilir.

25.8. Dinləmələr başa çatdıqdan sonra Nəzarət orqanı barəsində dinləmə aparılan vəzifəli şəxs tərəfindən bu Qanunun və ya əlaqəli qanunları pozulması barədə qərar qəbul edərsə, vəzifəli şəxsin qulluq etdiyi dövlət qurumu və ya bələdiyyənin rəhbərinə yazılı hesabat təqdim edir. Hesabatda dinləmələr zamanı təhlil edilmiş sübutlar haqqında məlumat və işə xitam verilməsi və ya vəzifəli şəxs barəsində müvafiq intizam tədbirlərinin görülməsi daxil olmaqla, işin sona çatdırılması üçün lazım olan digər hərəkətlər barədə tövsiyələri əks etdirilir. Əgər barəsində dinləmələr aparılmış vəzifəli şəxs Azərbaycan Respublikasının Prezidenti və ya Baş Naziri tərəfindən təyin edilibsə, hesabat müvafiq olaraq Azərbaycan Respublikasının Prezidentinə və ya Baş Nazirinə təqdim edilir.

25.9. Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Baş Naziri, dövlət qurumu və ya bələdiyyənin rəhbəri Nəzarət orqanı tərəfindən təqdim edilmiş hesabatı qəbul edə və ya rədd edə bilər.

25.10. Dövlət qurumu və ya bələdiyyənin rəhbəri hesabatın rədd edilməsi barədə qərarını əsaslandırmalı və barədə Nəzarət orqanını yazılı şəkildə məlumatlandırmalıdır.

Maddə 26. Nəzarət orqanının hesabatı

26.1. Nəzarət orqanı fəaliyyəti haqqında illik hesabat tərtib edir və onu Azərbaycan Respublikasının Prezidentinə təqdim edir.

26.2. Nəzarət orqanının hesabatında şəxslərin şəxsi həyatının sirrini yaymamaq şərti ilə onun fəaliyyəti, həyata keçirdiyi maarifləndirmə, araşdırma, dinləmələr, statistik məlumatlar, daxil olmuş müraciətlərin baxılması vəziyyəti, qanunun tətbiqi ilə bağlı digər hallara dair məlumatlar, habelə maraqlar toqquşmasının aradan qaldırılması ilə əlaqədar Nəzarət orqanının fikir, rəy və tövsiyələri öz əksini tapmalıdır.

26.3. Hesabat rəsmi dövlət qəzetində dərc olunur.

Maddə 27. Qanunun pozulmasına görə məsuliyyət

Vəzifəli şəxs tərəfindən bu qanunun tələblərinin pozulması mülki-hüquqi, inzibati və ya cinayət məsuliyyəti yaratdıqda, vəzifəli şəxsin məsuliyyətə cəlb edilməsi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun həyata keçirilir. Bu qanunun tələblərinin pozulması inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda qanunvericiliklə müəyyən edilmiş qaydada intizam məsuliyyətinə səbəb olur.

Maddə 28. Qanunsuz əldə edilmiş əmlakın götürülməsi və qanunsuz əldə edilmiş imtiyaz və ya güzəştlərin dəyərinin ödənilməsi

28.1. Vəzifəli şəxslər və sabiq vəzifəli şəxslər tərəfindən bu Qanunun tələblərinə zidd olaraq əldə edilmiş əmlak və qanunsuz əldə edilmiş imtiyazlar və ya güzəştlərin dəyəri könülü olaraq dövlət nəfinə ödənilir. Vəzifəli şəxslər və sabiq vəzifəli şəxslər bu Qanunun tələblərinə zidd olaraq əldə edilmiş əmlakı könüllü olaraq qaytarmaqdan və ya onun dəyərini, habelə qanunsuz əldə edilmiş imtiyaz və ya güzəştlərin dəyərini könülü olaraq ödəməkdən imtina etdikdə, qanunsuz əldə edilmiş əmlak və ya onun dəyəri, qanunsuz əldə edilmiş güzəşt və ya imtiyazların dəyəri müvafiq dövlət qurumlarının və ya bələdiyyənin iddiası əsasında məhkəmə tərəfindən dövlətin nəfinə ödənilir.

28.2. İşə məhkəmədə baxılana qədər iddianın təmin edilməsi üçün məhkəmə tərəfindən cavabdehin əmlakı barədə mülki prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görülə bilər.

Maddə 29. Qanunun tələblərinə zidd olaraq qəbul olunmuş aktların ləğv edilməsi

Qanunun tələblərinə zidd olaraq qəbul olunmuş aktlar müvafiq dövlət qurumları və ya bələdiyyələr tərəfindən və yaxud müvafiq dövlət qurumlarının və ya bələdiyyələrin və digər şəxslərin müraciətləri əsasında məhkəmə tərəfindən ləğv edilə bilər.

Maddə 30. Keçid müddəaları

Bu Qanunun 19.7-ci maddəsində nəzərdə tutulan planlar təsdiq edildikdən sonra dövlət qurumları və bələdiyyələr bu planları dörd ay müddətində təqdim etməlidirlər.

Maddə 31. Qanunun qüvvəyə minməsi

Bu qanun dərc olunduğu gündən qüvvəyə minir.